*Qədim Diyar* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 7 Sayı: 7 / 95-99 ISSN: 2706-6185
*Ancient Land* International Scientific Journal. 2025 / Volume: 7 Issue: 7 / 95-99 e-ISSN: 2709-4197

DOI: https://doi.org/10.36719/2706-6185/49/95-99

**Rahilə Qurbanova**
Azərbaycan Dövlət Pedoqoji Universiteti
https://orcid.org/0009-0008-4589-004X
rahila.qurbanova@mail.ru

# Upanişadlar təlimində ruhun aydınlanması

## Xülasə

Məqalədə Upanişadların Hind fəlsəfi düşüncəsinin əsasını təşkil edən ən qədim mətinlərdən biri olduğu və varlığın mənası, kainatın yaradılışı, ruhun mahiyyəti, onun aydınlanma prosesi, eləcə də aydınlanmaya aparan yollar təhlil edilir. Bu mətnlərdə insan varlığının maddi dünyadan daha üstün bir reallığa sahib olduğu və bu reallığın isə yalnız aydınlanma yolu ilə dərk oluna biləcəyi göstərilir. Upanişadlar təlimində Atman (ruh) və Brahmanın (universal ruh) birləşmə prosesinə ruhun aydınlanması və ya özünü dərk deyilir. Məqalədə Brahman, Atman, maya, mokşa, karma, renkarnasiya və samsara kimi fəlsəfi anlayışlar da təhlil edilir. Upanişadların ən yüksək ruhi və fəlsəfi axtarışı insanın öz daxili mənliyini tapmasında olduğu qeyd edilir.
***Açar sözlər:*** *kainat, tanrı, ruh, Brahman, Atman, maya, mokşa, karma, samsara, renkarnasiya*

**Rahila Gurbanova**
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0008-4589-004X
rahila.qurbanova@mail.ru

# Enlightenment of the Soul in the Teachings of the Upanishads

## Abstract

The article analyzes the Upanishads as one of the oldest texts that form the basis of Indian philosophical thought and analyzes the meaning of existence, the creation of the universe, the essence of the soul, the process of its enlightenment, as well as the paths leading to enlightenment. These texts show that human existence has a reality superior to the material world and that this reality can be understood only through enlightenment. In the teachings of the Upanishads, the process of the union of Atman (soul) and Brahman (universal spirit) is called enlightenment of the soul or self-realization. The article also analyzes philosophical concepts such as Brahman, Atman, maya, moksha, karma, reincarnation and samsara. It is noted that the highest spiritual and philosophical quest of the Upanishads is to find one's inner self.
***Keywords:*** *universe, god, soul, Brahman, Atman, maya, moksha, karma, samsara, reincarnation*

## Giriş

Hind fəlsəfəsinin ən qədim və dərin qatlarını özündə birləşdirən Upanişadlar, insanın mənəvi mahiyyəti, kainatın varlığı və ruhun əbədiliyi haqqında əsaslı suallara cavab verməyə çalışan müqəddəs mətnlərdir. Bu mətnlərdə insan varlığının maddi dünyadan daha üstün bir reallığa sahib olduğu, bu reallığın isə yalnız idrak, özünü dərk və aydınlanma yolu ilə dərk oluna biləcəyi aydın şəkildə ifadə olunur. Upanişadlar təlimində Atmanla (ruh) və Brahmanın (universal ruh) birləşmə prosesinə ruhun aydınlanması və ya özünü dərk deyilir. "Brahman Atman və Atmanlar Brahmandır. Hər şeyin meydana gəldiyi Ali güc hər bir insanın qəlbində olan mənlikdir" (Radhakrishnan, 1924, s. 37). Upanişadlarda ruhun aydınlanması, insanın öz daxili təbiətini, ruhunu və həyatın əsl məqsədini dərk etməsidir. Yəni, insanın maddi dünyadan ayrılması, həqiqi mənliyini, Atmanı dərk etməsi, dünyadakı illüziyalardan, arzularda və qorxu kimi maddi bağlardan azad olmasıdır. Ruhun aydınlanması yalnız zehni və fiziki təcrübə ilə deyil, həm də Tanrı ilə qovuşmaqdır.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

Upanişadlar Hind fəlsəfi düşüncəsinin əsasını təşkil edən ən qədim mətinlərdən biridi və Vedanın bir hissəsi olaraq qəbul edilir. "Upanişadlar Veda dövrünün son ədəbi əsərləri idi. Ümumiyyətlə, o dövrdə üç növ əsər var idi: ən qədimi müxtəlif samhitlərdə məsələn, Riqveda, Yajurveda, Samaveda və Atharveda da toplanmış Veda ilahiləri və ya mantraları idi; sonra Veda ritualların əks etdirən traktatlar olan Brahmanlar və nəhayət, fəlsəfi problemlərlə məşğul olan Upanişadlar gəldi" (Chatterdzhi, & Datta, 19557, s. 177). Burda tanrıların mahiyyəti və insanın mövcudluğunun mənası ilə bağlı dərin fəlsəfi düşüncələrə, təhlilərə, insanın ruhani axtarışına xüsusi diqqət yetrilmişdir. Həmçini varlığın mənası, kainatın yaradılışı, tanrı və insanın qarşılıqlı əlaqəsi kimi dərin fəlsəfi mövzularla da bağlıdır.

**Tədqiqat**

Upanişad sözünün sanskrit dilində mənası "yaxın oturmaq" və ya "müəllim qarşısında oturmaq" deməkdir. Bu şagirdin müəllimin yanında oturaraq onu dərindən, diqqətlə dinləməsini və öyrənməsini ifadə edir. "Upanişadlar sözü ümumiyyətlə "gizli biliik" mənasında qəbul edilir. Upanişadların rəvayətləri o dövrdə bu sirlərə sahib olan müdrikin etibarını qazanmağın nə qədər çətin olduğundan bəhs edir: tələbələr uzun müddət təhsil almalı idilər, padşahlar isə bu məqsədlə sərvətlər xərcləyirdilər" (Chattopadykhvya, 2003, s. 71).

Upanişadlar təlimində Brahman, Atman, maya, mokşa, karma, renkarnasiya və samsara kimi fəlsəfi anlayışlar təhlil olunur. Brahman kainatın yaradılışının, mövcudluğunun və sonlanmasının məhsuludur. O, universal və sonsuz qüvvə, hər şeyin əsası, dəyişməz, mükəmməl, bütün varlıqlarla eyni və Tanrının ali təzahürüdür. Brahman yaradılışın əsas mənməyidir. Brahman heç vaxt itmir, əksinə, daim özünü yenidən təşkil edir və bütün kainat bu davamlı dəyişikliklərə tabedir. Upanişadlar təlimində yaradılışın necə baş verdiyi və Brahmanla necə əlaqələndirildiyi haqqında bir çox fərqli təhlil var. Bu təlimda qeyd olunur ki, Brahman hıqiqət və mövcudliqdur, Brahman hər şeyin və hər kəsin əsasıdır. O, həm yaradılışın, həm də yoxluğun içindədir. Brahman çox vaxt Nirguna (görünüşsüz, tərifsiz) və Saguna (xüsusiyyətlərlə məxsus) olaraq təsvir edilir. Nirguna Brahman bütün xüsusiyyətlərdən, formadan və cəhətlərdən azaddır, zaman və məkanla əlaqəsizdir, hər şeydən əvvəl var olan, sonsuz olan gercəklikdir. Brahman kainatın hər tərəfində mövcuddur. "Mütləq yaradıla bilməz, ona görə də O, forasız olmalıdır, çünki O, sonsuzdur hər şeyi əhatə edir. Ona görə də O, hər şeyin içində və hər şeydən kənarda olmalıdır. Nirquna Brahman atributları olmayan Brahman deməkdir" (Paramananda, 1919, s. 134-135).

Saguna Brahman daha çox müəyyən xüsusiyyətlər və formalarla, ilahi bir şəxsiyyət kimi təsvir edilir. Brahmanın fərdi Ilahi varlıqlarla əlaqəsi daha aydın görünür. Məsələn, Vişnu, Şiva və Şakti kimi müxtəlif tanrılarla əlaqəsi olduğu göstərilir. Upanişadlar qeyd edirlər ki, Brahman yalnız varlıq kimi deyil, həm də təbiətin və ruhun harmonik birləşməsidir. İnsanlar Brahmanı anlamaq üçün daxili sükunət, meditasiya və fərdi təcrübə yolu ilə təmizlənərək, özlərinin yüksək həqiqətini başa düşə bilərlər. Brahman həm yüksək bir gerçəklik, həm də ən dərin daxili şüurun bir ifadəsi olaraq Hind fəlsəfi düşüncəsinin ən dərin və ən əhəmiyyətli mövzularından biridir.

Atma - insan ruhunun və fərdi mənliyin ali təzahürüdür. Atman insanın ruhunu və insanın mahiyyətini təmsil edir. "Atman hər şeydir, hər şeydən müqəddəsdir. Hər şey yalnız ona görə müqəddəsdir. Atman hər bir insan xoşbəxtliyinin mənbəyidir. O, saf xoşbəxtlikdir" (İplikci, 2015, s. 34).

Upanişadlar təlimində insanın daxili ruhu (Atma) ilə kainatın ən yüksək varlığı (Brahman) arasındakı əlaqə təhlil edilir. Atma ilə Brahma arasında heç bir fərq olmadığı vurğulanır. Bu fikir "Tat tvam asi" ("Sən osan") ifadəsi ilə simvollaşmışdır. Bu ifadə insanın və kainatın bir-birinə bağlı olduğunu göstərir, insanın daxili varlığının ən yüksək varlıqla eyni olduğunu göstərir. Atman insanın daxili özüdür, ruhudur və gözlə görünməyən mənliyidir. Atman butun mövcudluğun, insanın, kainatın və Brahmanın bir hissəsi kimi təsvir edilir. Bu anlayış həyatın mənasını, varlıq və mövcudluğu başa düşmək anlamıdır. Atman insanın öz mahiyyətini, kainatla əlaqəsini və mövcudluq məqsədini anlamasına kömək edir. Atman insanın ən dərin, həqiqi və dəyişməz mahiyyətidir. "Bu ürəkdəki Atmandır. Burada - yüz bir arteriya, bunların hər birində isə yetmiş iki min şaxəli arteriya var. Nəfəs bütün bədənə yayılaraq onun boyunca hərəkət edir" (Syrkin, 2003, p. 194). O, bədənin və zehni proseslərin arxasında duran, zaman və məkanın təsirlərinə tabe olmayan bir varlıqdır. Bu

ruh, insanın şüurunun və varlığının əsasıdır. O, bədən öləndən sonra da yaşayır, Atman sonsuz, dəyişməz və həqiqi bir varlıq olaraq təyin edilir. O, insanın əsl kamilliyini ifadə edən və maddi dünyadan aslı olmayan bir gercəklikdir. Atman həmçinin Şüur və ya Həyat ruhu kimidə adlandırılır. İnsanın bədəni, hissləri, duyğuları, düşüncələri dəyişgən olsa da, Atman dəyişməzdir, həmişə mövcuddur.

Upanişadlar təlimində göstərilir ki, Atman ilə Brahman arasında güclü bir əlaqə var, Brahman ən yüksək ümumi gercəklik, Atman isə hər bir fərdi varlığın dərin mənbəyidir. "Hər bir şeyin özündə əbədi olan bu mən ən kiçik şeydən kiçikdir, ən böyük şeydən böyükdür" (İsmi, 1976, s. 16). Bu təlimində Atman və Brahman eynidir "dünyanın mənəvi, ruhi əsası olan Brahmandır; insanın mənəvi, ruhi mahiyyəti-Atman bu mənəvi əsasla eyniyyət təşkil edir" (Vəliyev, 1997, s. 429). İnsanın daxili ruhu Atman ilə bütün kainatın və təbiətin əsas mahiyyəti olan Brahman arasında heç bir fərq olmadğını bildirir. Atman insanın daxili özüdür, hər bir insanın öz mahiyyəti və varlığıdır. Brahman isə ümumi varlıq və yüksək gercəklikdir. Ona görədə Brahman və Atman eynidir. "Mütləq reallıq Brahman Atman ("Mən", nəfs) ilə vəhdətdə, eyniyyətdə götürülür. Brahmana məxsus əbədi, pak, sərbəst, vahid bölünməz, müqəddəs, qeyri-dual, həqiqi, bilici, daimi kimi atributlar ona da aid edilir. Ali Atmanda bilici, bilik və dərk olunan arasında fərq qoyulmur. Nəticədə bütün dünya Atmanla eyniləşdirilir" (Bakı Dövlət Universiteti, 1999, s. 259) Bu təlimə görə, insanın daxili ruhu Atman və ümumi gercəkli Brahman arasında ayrı seçkilik yoxdur, hər biri bir-birini əks etdirir. Bu ən yüksək həqiqət və insanın daxili varlığı ilə əlaqəli iki əsas anlayışdır. "Bir insana və hər şeyin təbiətinə aid olan "Mən" varlıqdakı "Mən" imkan və zərurət baxımından fərqli olsa da, əslində eynidir və bir-biri ilə bağlıdır. Atman həm məkandan kənardadır, həm də hər şeyin içindədir" (İplikci, 2015, s. 36). Hind fəlsəfəsində Brahman ən yüksək həqiqət və kainatın əsas mənbəyi kimi qəbul edilir. O, hər şeyin birliyi, əzəli və əbədidir. Brahman təkdir və mütləqdir, hər hansı bir formaya sahib deyil. Atman isə insanların daxili varlığı, ruhu və şəxsiyyətidir. Atman Brahman ilə bir olan bir mahiyyətdir. Upanişadlarda "Tat Tvam Asi" ("Sən osan) ifadəsi Atman və Brahman;n eyni mahiyyət oldiğunu ifadə edir. Beləliklə, Brahman və Atman anlayışları bir-birinə sıx bağlıdır və bu ideya xüsusilə Upanişadlarda mövcuddur.

Upanişadlar təlimində "Maya" - yalan, aldatnma, illuziya və ya qeyri-reallıq anlayışıdır. Maya kainatın və həyatın görünən təbiətinin əsl həqiqətə qarşı bir illuziya olduğunu vurğulayan və maddi dünyanın müvəqqəti, aldadıcı olduğu bildirilir. Əsl həqiqət Brahma və Atman arasında olan birləşmədir. Maya aldatma və ya illuziya olduğu üçün əsl həqiqəti gizlədən bir qüvvə olaraq qəbul edilir. Upanişadlara görə, dünya insanların ağıl və hissləri ilə qurulan bir aldanışdır. Maya bizim hisslərimizlə qəbul etdiyimiz dünyanı əslində bir yalan və ya gözəgörünməz təbəqə olduğunu ifadə edir. Bu aldanışdan qurtulmaq üçün insanın daha yüksək ruhsal şüura çatması lazımdır. Maya həm də tanrıların dünyanı yaratmaq və idarə etmək üçün istifadə etdiyi bir gücdür. Misal olaraq Vişnunun Mayanı idarə etməsi, kainatın yaratmaq və qorumaq qüdrətini göstərir. Mayanın gücü sayəsində dünya mövcud olur və dəyişir. Upanişadlara görə, insanlar yalnız Mayanın təsiri altında yaşayan bir varlıqlardır. Onların yeganə məqsədləri Brahmanla birləşərək ruhu azad etməkdir. Mayanın dünyasında insanlar öz gerçək təbiətlərini unudur, bu da onların arzu və ehtiraslara bağlanmalarına səbəb olur.

Maya doğuş və ölüm dövrünü (samsara) davam etdirən bir qüvvədir, çünki insanlar illuziya və yalnış anlama nəticəsində yenidən dünyaya gəlirlər. Bu əzabdan qurtulmaq üçün insanlar öz həqiqi ruhlarını tapmalı və kainatın əsas təbiətini anlamalıdırlar. Maya insanları dünyadakı görkəmli əşyalar və hisslərə bağlılıqdan xilas etməyə çalışır. İnsanlar yalnız görkəmli və maddi dünyaya bağlı olduqda Mayanın təsirində qalırlar. Lakin insan öz ruhunu və əsl mahiyyətini tapmaq istəyirsə, o zaman Mayanın arxasında duran həqiqəti axtarmağa başlamalıdır. Mayanın əsas məqsədi insanlara dünyanın müvəqqəti və dəyişkən olduğunu göstərmək, eyni zamanda onları dünyəvi arzulardan uzaqlaşdırmaqdır.

Upanişadlar təlimində Mokşa insanın mənəvi inkişafı, özünü anlamağı və əbədi həqiqətləri tapmasıdır. Fərdi ruhun (Atman) reallıqla (Brahman) birləşərək, həyatın dövrü olan yenidən doğuşdan (samsara) azad olmasıdır. Moşkanın ən yüksək hədəfi ruhun azadlığı və nirvanaya çatmasıdır. "Nirvana səviyyəsində olan insanın təcrübəsi təsvir oluna bilməz, çünki o adi təcrübə sərhədlərini

keçib. Nirvananı yalnız adi təcrübəyə aid olan inkari sözlərlə ifadə etmək olar. Buna görə Naqarcuna nirvananı belə inkari formada ifadə edir "adi yolla dərk oluna bilməyən, yenidən qazanılmayan, dağılmayan, əbədi olmayan, yaradılmayan – nirvanadır" (Çatterci, Datta, 2016, s. 86).

Upanişadlarda əsas məqsəd fərdin öz əsl mənliyini tapması və dünyadan azad olması, qurtulması, nirvanaya çatmasıdır. "Ölməzliyin ən ali təzahüri – Allahla birləşməkdir. Tərəqqi Allahla birləşmək üçün tükənməz cəhddir" (Rüstəmov, 2004, s. 68). Bu təlimdə göstərilir ki, Mokşa karmik dövrün sona çatması, bədən və ruh birliyinin tamamlanması, sansara (təkrar döyüş dövrü) və səhv anlayışlardan qurtuluşdır. Mokşa insanın əzəli və sonlu olmayan, yəni Brahman ilə tam birləşməsi nəticəsində əldə edilir. İnsan Brahman ilə birləşdikdə, samasara dövrü sona çatır və insanın mövcudluğu artıq təkrarlanan doğuş və ölüm dövründən kənara çıxır. Brahman ilə birləşmək, insanın öz ruhunun əsl mənasını başa düşməsi və maddi dünyadan tam azad olmasıdır. Mokşa səviyyəsinə çatmaq üçün insan, özünün Brahman ilə bir olduğunu və əsil gerçəkliyin Brahman olduğunu dərk edərək, heç bir fərq olmadığını qəbul edir. "Buna ruhun mariflənməsi və ya azadlığı deyilir. Bu son məqsəd insandır. Bu insanın əldə edəcəyi ən böyük nemət kimi təsvir edilir. Bu səbəbdən, mokşa, digər hədəflərdən yuxarıda saxlanılır" (İplikci, 2015, s. 62).

Meditasiya və dərin düşüncə vasitəsilə insan özünü anlayır və mokşaya döğru irəliləyir. İlahi qüvvəyə sevgi və itaət, insanın Brahman ilə birliyini təmin edə bilir. İnsan yaxşı əməllər vasitəsilə karma yığıb, gələcək həyatında daha yüksək və daha saf mövcudluğa keçə bilir. Şüuru təmizləmək, dünya ilə əlaqəni azaltmaq üçün medidasiya edərək, içindəki sükunəti tapır və ondan sonra Brahmanla birləşir.

Upanişadlar təlimində mokşa, insanın öz varlığının mahiyyətinin əsl mənasını başa düşməsi və özünü Brahman ilə birləşdirməsi nəticəsində əldə edilən bir azadlıqdır. Bu proses insanın öz şüurunu, fəaliyyətini və təfəkkürünü dəyişdirərək, mütləq gerçəkliklə birləşmək və karmadan azad olmaq məqsədini güdür. Mokşa, dünya ilə əlaqənin sona çatması, İlahi ilə birləşməsi və hər növ kənar təsirlərdən azad olma halıdır.

Bu təlimdə karma və renkarnasiya anlayışları da mühüm yer tutur. Karma və renkarnasıya samsara dövrü ilə sıx bağlıdır və insanın mənəvi inkişafında, təkrar doğuşların mənasında çox böyük rol oynayır. Karma insanın əməlləri, hərəkətləri və niyyətləri ilə bağlı bir anlayışdır. Karma hər bir əməlin, hərəkətin və düşüncənin nəticəsi olduğunu bildirir. Bu nəticələr həm pozitiv, həm də neqativ ola bilə və onların nəticələrinin insanın gələcək həyatını necə formalaşdırdığını göstərən bir qanun olaraq təsvir edilir. Karma qanunu yaxşı və ya pis fəaliyyətin nəticələrinin insanın gələcək həyatında təzahür edəcəyini bildirir. Karma təkcə fiziki fəaliyyət deyil, eyni zamanda insanların niyyətləri, düşüncələri və sözləri ilə əlaqədardır. "...karma qanunu fiziki birlik qanununun analoqudur. Bu mənəvi enerjinin saxlanması qanunudur" (Radhakrishnan, 1956, s. 111). Bir insanın hərəkətləri həm özü üçün, həm də başqaları üçün müəyyən nəticələr doğurur. Upanişadlar təlimində qeyd olunur ki, insanın etdiyi yaxşı və pis əməllər nəticəsində karmik yük yığılır. Bu yük, insanın gələcək həyat təcrübələrini müəyyən edir. Pozitiv karma yaxşı bir həyat və daha yüngül təcrübələr gətirərkən, neqativ karma ağır və çətin təcrübələrə yol aça bilər.

Mokşa (qurtuluş) karma dövrünün sona çatması və təkrarlanan doğuşların bitməsi ilə əlaqədardır. İnsan öz karmik yükünü təmizləyərək, doğru yolla həyatını yaşamağa başladıqda, nəticədə mokşaya, yəni əbədi azadlığa və Brahman ilə birləşməyə çatır.

Upanişadlar təlimində Samsar anlayışı isə təkrar doğuş və ya yenidən doğuş deməkdir. Samsara bir insanın ölümündən sonra ruhun başqa bir bədəndə doğulmağa davam etdiyi bir dövrü təmsil edir. Bu dövrün sonu, mokşa ilə gəlir, yəni samasara dövrü sona çatır və insan Brahmanla birləşir.

Karma ilə əlaqəli olaraq samsara, insanın ruhunun həyatdakı əməllərinə görə fərqli bədənlərdə və şəraitlərdə doğulmasına səbəb olur. İnsanların həyata keçirdiyi hər bir əməlin (karma) nəticəsi olaraq onlar yaxşı ya da pis karma yığır və bu da növbəti həyatlarını müəyyən edir.

Renkarnasiya və karma qarşılıqlı əlaqədədir, çünki yaxşı əməllər insanı daha yaxşı bir həyat şəraitinə, yüksək bir renkarnasiyaya və daha yaxşı şərtlərdə təcrübəyə gətirir. Pis əməllər və niyyətlər isə insanı daha çətin və ağır təcrübələrə, daha aşağı bir bədənə və ya şərtlərə doğurur. Upanişadlar təlimində karma və renkarnasiya bir-birini izləyən iki əsas və zəncirvari prinsipdir. İnsan ruhunun bu dünyada təkrarlanan doğuş və ölümlərlə mövcud olduğunu, bu dövrün yalnız karma

qanunu ilə bağlı olduğunu göstərir. İnsan ruhu bu dövr ərzində müxtəlif bədənlərdə yaşayır, hər dəfə fərqli təcrübələr yaşamaqla gələcək həyatlarını formalaşdırır.

Atman özünün əsil mənasını anlamağa və Brahman ilə birləşməyə çalışır, bu proses də təkrarlanan doğuşlar vasitəsilə inkişaf edir. Maya (dünyanın yalan və gercək təbiəti) ilə əlaqəli olaraq insan öz əsl təbiətini anlamağa başladıqca, samsara dövrü sona çatır. İnsan ruhu gerçək təbiətini tapana qədər təkrar doğulur. Upanişadlar təlimində göstərirlər ki, hər bir insanın ruhu yəni Atman əslində Brahman ilə eynidir. Bu birliyin anlaşılması  insanı samsaradan və təkrar doğuşdan azad edir, nəticədə mokşa əldə edilir.

Upanişadlarda karma və reinkarnasiya həyatın və mənəvi inkişafın əhəmiyyətli prinsipləridir. Karma insanın hərəkətlərinin, düşüncələrinin nəticəsidir və insanın gələcək təcrübələrini, doğuşlarını, həyat şəraitini formalaşdırır Samsara isə bu təkrarlanan doğuşlar dövrüdür və karma qanunu ilə əlaqədardır. İnsan karma və samsara dövründə azad olmaq və mokşaya çatmaq üçün öz əməllərini düzgün şəkildə yerinə yetirərək Brahman ilə birləşməyi hədəfləyir. Bu Upanişadların mənəvi yolunun əsas məqsədidir.

## Nəticə

Upanişadlar təlimi, hind fəlsəfəsinin ən ali mərhələlərindən biri kimi, insan varlığının maddi aləmlə məhdudlaşmadığını, onun daha yüksək, əbədi və dəyişməz bir mahiyyətə malik olduğunu göstərir. Bu təlimə görə, ruhun aydınlanması insanın öz mənəvi mahiyyətini dərk etməsi, onu kainatın universal ruhu olan Brahmanla birləşməsi prosesidir. Aydınlanma, sadəcə intellektual bilik deyil, dərin mənəvi idrak və daxili oyanışla əldə edilən bir haldır. Upanişadlar insanı, öz daxili aləmini  sorğulamağa, cəhalətdən qurtulmağa və son həqiqəti dərk etməyə çağırır. Bu mətnlərdə yer alan fəlsəfi konsepsiyalar Atman və Brahman arasındakı vəhdət, aydınlanma yolları və özünü dərk ideyası təkcə qədim hind dünyagörüşünün deyil, eyni zamanda ümumbəşəri mənəviyyatın və idrakın ifadəsidir. Bu baxımdan, Upanişadlar təlimində ruhun aydınlanması ideyası, müasir dövrdə də öz aktuallığını qoruyur. Çünki insan bu gün də, keçmişdə olduğu kimi, daxili sabitlik, mənəvi kamillik və həqiqi azadlıq axtarışındadır. Upanişadlar isə bu axtarışa həm fəlsəfi , həm də mənəvi istiqamət verir.

## Ədəbiyyat

1. Çatterci, S., & Datta, D. (2016). *Hind fəlsəfəsinə giriş* (M. Ç. tərc.).
2. Vəliyev, İ. (1997). *Fəlsəfə ensiklopedik lüğət*. “Azərbaycan ensiklopediyası” nəşriyyat-poliqrafiya birliyi.
3. Rüstəmov, Y. (2004). *Fəlsəfənin əsasları*. Elm nəşriyyatı.
4. Bakı Dövlət Universiteti. (1999). *Şərq fəlsəfəsi (IX–XII əsrlər)*. BDU.
5. Radhakrishnan, S. (1956). *Indiyskaya filosofiya* (T. 1, V. A. Malinin red.).
6. Syrkin, A. Y. (2003). *Upanishady* (3-cü nəşr).
7. Chatterdzhi, S., & Datta, D. (1955). *Vvedeniye v indiyskuyu filosofiyu* (A. Radugin, Ye. Tuchinskaya & A. Romanenko, tərc.). Moskva: Izdatel'stvo inostrannoy literatury.
8. Chattopadykhvya, D. (2003). *Ot sankkh'i do vedangy. Indiyskaya filosofiya: darshany, kategorii, istoriya* (İngilis dilindən tərc.). Moskva: Sfera.
9. İplikci, A. (2015). *Fəlsəfi düşüncənin ilk mətnləri: Upanişadlar*. Ərzurum.
10. İsmi, M. A. (1976). *Upanişadlar* (1-ci nəşr).
11. Radhakrishnan, S. (1924). *The philosophy of the Upanishads* (R. Tagore, ön söz; E. Holmes, giriş). Calcutta.
12. Paramananda, S. (1919). *The Upanishads* (Tərcümə və şərh, orijinal Sanskrit mətni). Boston, MA: Vedanta Centre.

Daxil oldu: 20.03.2025
Qəbul edildi: 01.07.2025